

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 95 (23.257)

*22 may 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Mayın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışında iştirak edib, yeni inşa edilən Bakı sərnişin – Sabunçu dəmir yolu xətti üzrə görülən işlərlə tanış olub.

Dövlətimizin başçısı əvvəlcə qəsəbə sakinləri ilə görüşüb söhbət edib.

Sonra Prezident İlham Əliyev yaxınlıqdakı mağazaya gəlib, alıcılar və satıcılar ilə söhbət edib.

Dövlətimizin başçısı Sabunçu dəmir yolu vağzalının rəmzi açılışını bildirən lenti kəsib.

Prezident İlham Əliyev Sabunçu dəmir yolu vağzalında yaradılan şəraitlə tanış olub.

Sonra dövlətimizin başçısı Bakı sərnişin – Sabunçu dəmir yolu xətti üzrə görülən işlərlə tanış olmaq üçün qatarla Bakı Dəmir Yolu Vağzalına yola düşüb.

Prezident İlham Əliyev Bakıxanov dayanacağında yaradılan şəraitlə tanış olub.

Sonra dövlətimizin başçısı Keşlə dayanacağında yaradılan şəraitlə də tanış olub.

Prezident İlham Əliyevin görülən işlərlə tanışlığı Bakı Dəmir Yolu Vağzalında başa çatıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Rusiya Federasiyası Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevi qəbul edib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində təltif və mükafatların təqdimatı olub





Mayın 21-də Azərbaycan Respublikası medallarının, Naxçıvan Muxtar Respublikasının fəxri adının və Azərbaycan Respublikası Prezidentinin mükafatının təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları təbrik edərək demişdir: Bu gün Azərbaycanda möhkəm dövlətçilik vardır. Ümummilli liderimiz Heydər Əliyevin təməlini qoyduğu dövlətçilik ənənələri ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Bunun da nəticəsində ölkəmizdə sabitlik, inkişaf və tərəqqi vardır. Ölkəmizdə müxtəlif sahələrdə çalışan vətənpərvər insanlar isə öz əməkləri ilə dövlətçiliyimizin möhkəmlənməsinə töhfə verirlər.

Ali Məclisin Sədri demişdir: Dövlət və xalq qarşısında xidməti olanlar o yerdə təltif olunurlar ki, həmin ölkədə dövlətçilik ənənələri, sabitlik və inkişaf olsun. Bu gün xidmətlərində və fəaliyyətlərində fərqlənənlərin təltif olunması da ölkəmizdə dövlətçilik ənənələrinin inkişaf etdiyini göstərir. İnsan əməyinə qiymət verilərkən o daha da məhsuldar olur. Təltif olunanlar da çalışdıqları sahələrdə nümunə göstərən, öz xidmətləri ilə fərqlənən insanlardır. “Hər kəs çalışdığı sahədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, dövlətçiliyimizin möhkəmlənməsinə töhfə verməlidir. Çünki dövlətçiliyin möhkəmlənməsi ölkənin davamlı inkişafı və sabitliyi deməkdir”, – deyən Ali Məclisin Sədri təltif olunanlara gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.



Sonra Ali Məclisin Sədri medalları, Naxçıvan Muxtar Respublikasının fəxri adını, eləcə də Azərbaycan Respublikası Prezidentinin mükafatını təqdim etmişdir.

Təltif olunanlardan Vüsal Əliyev, Füzuli Kazımov, Tahir Mirzəliyev, Rəşad Əliyev və Səbuhi Məmmədov əməklərinə verilən yüksək qiymətə görə çalışdıqları kollektivlər adından minnətdarlıq etmişlər. Qeyd olunmuşdur ki, bundan sonra da ulu öndər Heydər Əliyevin siyasi xəttinə sadiq qalacaq, səmərəli fəaliyyət göstərərək ölkəmizin inkişafına töhfə verəcəklər.

Prezident mükafatçılarından Natiq Məmmədov, Əbülfəz Məmmədov, Zülfiqar Mahmudov, Zeynalabdın Babayev, Tamerlan Bağırov, Səyyad Məmmədov və Gülnarə Hüseynova minnətdarlıq edərək demişlər ki, Naxçıvan Muxtar Respublikasında digər sahələrlə yanaşı, mədəniyyətin, incəsənətin inkişafına da xüsusi diqqət yetirilir. Milli dəyərlərimiz qorunur, muğam sənətimiz, milli musiqimiz və rəqslərimiz yaşadılır. Bu sahələrdə çalışanların təltif olunması da göstərilən diqqətin daha bir ifadəsidir.

Ali Məclisin Sədri qarşıdan dövlətçiliyimizin təməlinin qoyulduğu və elan edildiyi 28 May – Respublika Gününün gəldiyini bildirmiş, bu münasibətlə təltif olunanları və onların timsalında muxtar respublika əhalisini təbrik etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Maarifləndirici seminar keçirilib

*Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın və Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti əməkdaşlarının iştirakı ilə “Ümummilli lider Heydər Əliyevin milliləşmə siyasəti, Azərbaycançılıq ideologiyası və dövlət qulluqçuları qarşısında duran vəzifələr” mövzusunda seminar keçirilib.*

Seminarı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya sədrinin müavini Ümid Qurbanov giriş sözü ilə açıb. Bildirib ki, ölkəmizdə olduğu kimi, muxtar respublikada da dövlət qulluğu sistemi günün tələbləri səviyyəsində qurulub və bu sahədə bir sıra zəruri islahatlar həyata keçirilib.

Qeyd olunub ki, komissiya tərəfindən bu günədək keçirilmiş 17 müsabiqədə 5529 namizəd iştirak edib, onlardan 1226-sı müsabiqələri müvəffəqiyyətlə başa vuraraq dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinə təyin olunub. Bunun nəticəsidir ki, bu gün muxtar respublikanın dövlət orqanlarında inzibati vəzifə tutanların 36,9 faizi komissiyanın keçirdiyi müsabiqələrdə uğur qazanmış dövlət qulluqçularıdır.

Ümid Qurbanov çıxışında onu da deyib ki, dövlət qulluqçusu statusuna malik olan hər bir şəxsin üzərinə mühüm vəzifələr düşür. Belə ki, dövlət qulluqçusu dövlətçiliyə daim sədaqət nümayiş etdirməli, qanunvericiliyi dərindən öyrənməli, tapşırılan vəzifənin öhdəsindən layiqincə gəlmək üçün səy göstərməlidir.

Seminarda Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşı



çıxış edərək ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan milliləşmə siyasətindən, Azərbaycançılıq ideologiyasının prioritet istiqamətlərindən və dövlət qulluqçularının üzərinə düşən vəzifələrdən danışıb. Bildirib ki, Azərbaycan xalqının milli inkişaf yolunun və ideologiyasının formalaşdırılması ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərliyi dövrünə təsadüf edir. Ümummilli liderimiz Azərbaycanda hakimiyyətə gəldikdən sonra milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, milli kadrların yetişdirilməsi, Azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində mühüm tədbirlər həyata keçirilib. Natiq, milli təhlükəsizliyə təhdidlər və dövlət qulluqçularının qarşısında duran vəzifələrdən də danışıb.

Sonra komissiyanın mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Razi Məmmədov dövlət qulluqçularının etik davranış qaydalarından bəhs edib.

Seminarda mövzu ilə bağlı slaydlar nümayiş olunub, iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## *“Startap Naxçıvan”* hərəkatı: uğurlu innovasiyalar üçün səmərəli əməkdaşlıq modeli

*Yaşadığımız əsrin ötən dövründə muxtar respublikamızda sosial-iqtisadi inkişaf səviyyəsinin davamlı olaraq yüksəlişi yeni imkanlar yaradıb. Kreativ əmək və innovasiyalardan səmərəli istifadə etməklə cəmiyyət həyatının bütün sahələri sürətlə yenilənib. İqtisadi və sosial inkişafda innovasiya amilinin nəzərə alınması son illərdə qəbul edilmiş mühüm dövlət proqramları və sənədlərində aydın şəkildə ifadə olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” iqtisadiyyatın innovasiyalı inkişafını nəzərdə tutan növbəti mühüm dövlət sənədidir. Proqramda investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlərin görülməsi, yeni texnologiyaların tətbiqi əsasında yerli iqtisadi potensialın gücləndirilməsi, innovativ təsərrüfatçılıq formalarının yaradılması prioritet vəzifələr kimi qarşıya qoyulub.*



Muxtar respublikamızda iqtisadi və sosial sahələrdə innovasiyaların tətbiqinə hələ yeni əsrin əvvəllərindən başlanıb. İnnovasiyalar daha təkmil texnoloji proses yaradılması, bazara yeni məhsul çıxarılması, həmçinin sosial xidmətlərə yeni tərzdə yanaşma ilə ifadə olunur. Zaman keçdikcə bütün sahələrdə innovasiyaların artan sürətlə tətbiq olunması muxtar respublikanın sosial-iqtisadi inkişafının müasir mənzərəsini yaradıb. İqtisadiyyatımızın sahə strukturunda mütərəqqi dəyişikliklər, ənənəvi sahələrlə yanaşı, texnoloji və elm tutumlu yeni sahələrin meydana gəlməsi, yeni məhsulların istehsalı, mövcud məhsulların yeni növ və modifikasiyalarda bazara çıxarılması ilbəil daha geniş miqyas alıb. İstehsala uzunmüddətli innovativ yanaşmanın nəticəsidir ki, hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Sənayedə və kənd təsərrüfatında müasir texnologiyaların, yeni xammal növlərinin istehsala cəlb olunması texnoloji yönümlü innovasiyaların yayılmasını sürətləndirir.

Muxtar respublikanın bank və maliyyə sektorunda innovasiyaların tətbiqi geniş vüsət alıb. Ən müasir texnologiyaların istifadəsi diqqətdə saxlanılıb, nağdsız ödəniş sistemləri, elektron bankçılıq təşəkkül tapıb və inkişaf etdirilib. Maliyyə xidmətlərinə sürətli, asan və səmərəli çıxışı təmin edən yeni ödəmə texnologiyaları, bankomatlar, ödəniş terminalları istifadəyə verilib, sürətli pul köçürmələri imkanı yaradılıb.

Ticarətin daha müasir, yüksək rahatlığı və funksionallığı ilə seçilən supermarketlər, alış-veriş mərkəzləri, ixtisaslaşdırılmış satış şəbəkələri vasitəsilə həyata keçirilməsi təmin edilib. Muxtar respublikada müxtəlif yarmarkaların və festivalların təşkili yerli məhsulların tanıdılmasına, ailə təsərrüfatlarında əmtəəlik istehsal və bazar təcrübəsinin inkişafına xidmət edən təşkilati innovasiyalardır. Ailə təsərrüfatları üçün müvafiq sahələr üzrə məsləhət və maarifləndirmə xidmətlərinin təşkili, qablaşdırma, etiketlənmə, markalanma dəstəyinin göstərilməsi də bu qəbildən olan yeniliklər kimi diqqətəlayiqdir.

Elm və təhsil müəssisələrində yaradılmış müasir informasiya-kommunikasiya infrastrukturunun interaktiv təhsil sisteminə qoşulması kadr hazırlığında yeni dövrün əsasını qoyub. Muxtar respublikanın informasiya-rabitə sistemi tamamilə yeni nəsil texnologiyalar əsasında qurulub, “Elektron hökumət” portalı vasitəsilə əhaliyə 300-ə yaxın elektron xidmətin göstərilməsi təmin edilib. Enerji təsərrüfatı smart texnologiyaların tətbiqi mərhələsinə yüksəlib. Muxtar respublikada istifadəyə verilmiş Günəş Elektrik stansiyaları dövrümüzün ən qabaqcıl innovasiya nümunəsidir.

Kənd yaşayış məntəqələrində əhalinin bütün zəruri xidmətləri eyni məkanda əldə etməyə imkan yaradan kənd və xidmət mərkəzləri, vətəndaşlara yaşadıqları ərazidə göstərilən səyyar xidmətlər, nümunəvi təsərrüfat və ailə təsərrüfatı layihələri, Ağbulaq Turizm-İstirahət Bölgəsi kimi muxtar respublikaya məxsus olan sosial və biznes yönümlü innovasiyalar orijinal ideyası və yüksək səmərəliliyi ilə seçilir.

Yeni layihələrin maliyyələşdirilməsi mexanizmlərinin inkişafı da diqqətdə saxlanılıb. Biznesə yeni başlayanlar (startap) və icra edilmiş layihələrin genişləndirilməsi üçün maliyyə resurslarına ehtiyacı olan sahibkarlara dövlət tərəfindən verilən güzəştli kreditlərin həcmi ilbəil artır. Eyni zamanda investisiya tələbatını ödəmək üçün sahibkarlara banklar tərəfindən əlverişli şərtlərlə, aşağı faiz dərəcələri ilə təklif olunan kreditlər münbit investisiya mühiti yaradıb.

Nüfuzlu “Caspian European Club”un dəstəyi ilə hazırlanmış ölkəmizin iqtisadi regionlarının investisiya reytinqində 2017-2018-ci illərdə ardıcıl olaraq lider mövqeyə sahib olması Naxçıvan Muxtar Respublikasının investisiya və innovasiya cəlbediciliyinin daha bir ifadəsidir.

Sosial-iqtisadi, texniki və intellektual potensialın möhkəmləndirilməsi, informasiya və biliklərə əsaslanan rəqabətədavamlı iqtisadiyyatın qurulması istiqamətində aparılmış irimiqyaslı, kompleks və sistemli işlər innovasiyaların genişlənməsi üçün möhkəm baza yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamı görülmüş işlərin davamı olaraq yüksəkixtisaslı kadr hazırlığı və innovasiyaların yaradılması istiqamətində yeni vəzifələr müəyyənləşdirir.

İrəli sürülən məqsədlər ali məktəblərin innovasiyalı inkişafın aktiv subyektlərinə çevrilməsini tələb edir.

Əmək bazarının tələblərinə uyğun kadr hazırlığının həyata keçirilməsi, elmi araşdırmaların aparılması kimi ənənəvi istiqamətlərlə yanaşı, ali məktəblər innovativ ideyaların generasiyası funksiyasını da yerinə yetirməlidirlər. İnnovasiya layihələrinin məqsədyönlü axtarışı və reallaşdırılması, elmi nailiyyətlərin və yeni texnologiyaların sahibkarlıq strukturlarına ötürülməsi, investorlar üçün cəlbedici ola biləcək layihələrin hazırlanması, innovasiya fəaliyyətinin kadr təminatı qarşıda duran başlıca vəzifələr sırasındadır.

Yeni ideyaların yaradılması və startaplara çevrilməsi istiqamətində aktiv şəkildə fəaliyyət göstərmək üçün təhsil müəssisələrinin geniş maddi-texniki bazası və böyük elmi potensialı mövcuddur. Təhsildə və texnologiyalarda olan ən son nailiyyətlər auditoriyalarda tətbiq edilir. Bu potensialdan səmərəli istifadə etməklə ali məktəblərdə innovasiya mühitinin inkişafı kreativ düşüncəli yeni nəslin formalaşmasına ciddi təsir göstərəcəkdir. “Fikir fabriki” rolunu oynayan gənc nəslin yaradıcı potensialının startap layihələrinin hazırlanmasına səfərbər edilməsi gələcək mühəndislər, menecerlər, sahibkarlar ordusunun formalaşmasına aparan ən optimal vasitədir.

İnnovasiya fəallığının yüksəldilməsində, uğurlu startapların yaradılmasında muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələri ilə yanaşı, hami təşkilatların da öhdəsinə mühüm vəzifələr düşür. İnnovasiyaların idarə olunmasında təhsil müəssisələrinin və hami təşkilatların balanslaşdırılmış əməkdaşlığının yaradılması tələbə-novatorların “Startap Naxçıvan” hərəkatının aktiv iştirakçısına çevrilməsinə xidmət edəcəkdir.

Hami təşkilatların təhsil müəssisələri ilə birlikdə “İdeyadan başlanğıca” devizi altında innovativ layihələrin həyata keçirilməsində iştirak etməsi, təqdim olunmuş layihələrin ekspert qrupları tərəfindən dəyərləndirilməsi onların praktik əhəmiyyətini yüksəldəcəkdir. Tələbələr müvafiq təşkilatlarda təlim almaq, təcrübə keçmək, ixtisas artırmaqla yanaşı, innovativ ideyaları təklif etmək, istifadə və reallaşdırmaq imkanı qazanacaqlar. Eyni zamanda innovasiya sferasında müvəffəqiyyət qazanmaq üçün məsləhət və dəstək almaq, ideyalarını səmərəli layihələrə yönəltmək kimi üstünlüklərdən yararlana biləcəklər.

*Muxtar respublikada innovasiyaların stimullaşdırılması istiqamətində xeyli əvvəl başlayan və hazırda yeni müstəvidə davam etdirilən məqsədyönlü tədbirlər innovativ inkişafın yeni mərhələyə yüksəlməsinə təkan verəcəkdir.*

**Müslüm CABBARZADƏ**
***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri***

*Naxçıvan Müəllimlər İnstitutunda İnnovasiya laboratoriyasının təşkilatçılığı ilə doktorant və magistrantların I Regional elmi konfransı keçirilib.*

## Elmi konfrans keçirilib



Tədbiri institutun rektoru, dosent Elbrus İsayev açaraq bildirib ki, bütün dünyada elm və təhsilin sürətlə inkişaf etdiyi hazırkı dövrdə ölkəmizdə bu sahələrdə geniş islahatlar həyata keçirilməkdədir. Respublikamızda ali təhsil sisteminin beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsi, yeni inkişaf mərhələsində ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzlərinə çevrilməsi, onlarda rəqabətqabiliyyətli mütəxəssis hazırlığının təmin olunması və digər prioritet vəzifələrin uğurla reallaşdırılması üçün görülən işlər sırasında müxtəlif elmi tədbirlərin keçirilməsi mühüm yer tutmaqdadır. Bu gün reallaşdırılan hər bir tədbirin nəticəyönümlü olması, onun məzmun və forma yeniliyi xüsusi əhəmiyyət kəsb edir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası istiqamətində görülən işlər çərçivəsində Naxçıvan Müəllimlər İnstitutunda İnnovasiya laboratoriyası yaradılıb. Burada əsas məqsəd təkcə startapla bağlı deyil, bütövlükdə, tələbə və müəllimlərin innovativ təklif, işləmə, layihə və elmi-tədqiqat nəticələrinin dəyərləndirilməsi, qeydə alınması və operativ tətbiqə yönəldilməsi istiqamətindəki fəaliyyətlərini koordinasiya etməkdən ibarətdir. İnnovasiya laboratoriyası Naxçıvan Müəllimlər İnstitutunda təhsil-tədqiqat-innovasiya formatında fəaliyyətin koordinasiyası, bütövlükdə, muxtar respublikamızda fəaliyyət göstərən ali təhsil və elm müəssisələrində gənc tədqiqatçıların, doktorant və magistrantların elmi-tədqiqat fəaliyyəti nəticələrinin müzakirələrinin təşkili və onların təqdim edilməsi sahəsində əməli işlərin görülməsini hədəfləyir. Müasir ali təhsil sistemində aparıcı istiqamət sayılan təhsil-tədqiqat-innovasiya formatı üzrə muxtar respublikada hər il elmi konfrans və digər elmi-təşkilati tədbirlərin keçirilməsi ənənəsini qoyur.

Rektor cari tədris ilinin ikinci semestrində bu istiqamətdə görülən işlərdən də danışıb.

Konfransda Naxçıvan Müəllimlər İnstitutunun İnnovasiya laboratoriyası (İnnoLab) üzrə məsul şəxsi Ali riyaziyyat və informatika kafedrasının baş müəllimi Səminə Rüstəmovanın, AMEA Naxçıvan Bölməsinin doktorantı Səkinə Vəliyevanın, Naxçıvan Müəllimlər İnstitutunun doktorantı Aygün Əsgərovanın, Naxçıvan Dövlət Universitetinin magistrantı Təbəssüm Hacıyevanın, Naxçıvan Müəllimlər İnstitutunun magistrantı Nigar Səfərovanın çıxışları dinlənilib.

Naxçıvan Müəllimlər İnstitutunun Tələbə Elmi Cəmiyyətinin XIX konfransında təqdim etdikləri məruzələrinə görə yer tutan tələbələr mükafatlandırılıb.

Konfrans bölmə iclasları ilə işini davam etdirib.

Yekun iclasda bölmə rəhbərlərinin hesabatları dinlənilib.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Sərnişindaşıma xidməti nümunəvi təşkil olunub



*Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti aprel ayında muxtar respublika əhalisinə göstərilən avtonəqliyyat xidməti səviyyəsinin yüksəldilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirmişdir.*

“Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə” keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası məqsədilə “İdeyadan başlanğıca” layihəsi çərçivəsində Naxçıvan Dövlət Universitetinin Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi və Naxçıvan Dövlət Texniki Kollecinin Yol hərəkətinin təşkili ixtisası üzrə təhsil alan tələbələrlə birgə “Nəqliyyat könüllüləri” layihəsi həyata keçirilmişdir. Həmçinin Naxçıvan Dövlət Texniki Kollecinin IV kurs Yol hərəkətinin təşkili ixtisasında təhsil alan tələbələrin və Naxçıvan Dövlət Universitetinin III kurs Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi ixtisasında təhsil alan tələbələrin xüsusi qrafik üzrə istehsalat təcrübələrinin keçirilməsi işi təşkil olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Sərəncamına uyğun olaraq hamiliyə verilmiş ixtisaslarla işin təşkili və yeni layihələrin həyata keçirilməsi üçün ekspert qrupu və ictimai əsaslarla fəaliyyət göstərən Startapların dəyərləndirilməsi mərkəzi yaradılmış, ali və orta ixtisas təhsili müəssisələri ilə qarşılıqlı tədbirlər planı hazırlanaraq təsdiq olunmuşdur.

Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə məxsus avtobuslarla Naxçıvan-İqdır-Naxçıvan marşrutunda gündəlik sərnişindaşıma xidməti həyata keçirilmişdir. Sərnişinlərin rahatlığını təmin etmək üçün Naxçıvan-Bakı marşrutunda işləyən avtobuslardan birinin hər gün Şərur və Culfa avtovağzallarından yola salınması, Şahbuz və Ordubad avtovağzallarında isə bu avtobusa bilet satışı işi davam etdirilmişdir. Aprel ayında bu marşrutla 3471 sərnişin daşınmışdır.

Xidmətin reyd komissiyası tərəfindən reydlər keçirilmiş, şəhərdaxili və rayonlararası marşrutlarda hərəkət qrafikinə nəzarət artırılmış, qanunsuz sahibkarlıqla məşğul olan avtonəqliyyat vasitələri müəyyən edilərək tədbir görülməsi üçün onlar haqqında məlumat müvafiq təşkilatlara göndərilmişdir. Fəaliyyətdə olan 131 marşrut xəttində 313 avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmiş, 484 taksi sərnişindaşıma xidməti göstərmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti***

## Operativ vergi nəzarəti tədbirləri görülür



Aprel ayında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər aparılıb, 5 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilərək müvafiq tədbirlər görülüb.

Operativ vergi nəzarəti tədbirləri zamanı 4 vergiödəyicisinin “Fərqlənmə nişanı” olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşınması müəyyən edilib. Keçirilən nəzarət tədbirləri zamanı səyyar ticarətlə məşğul olan 1 şəxsin vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu aşkarlanıb və həmin şəxs barəsində qanunamüvafiq tədbir görülüb.

Vergilər Nazirliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanları ilə birgə 73 işəgötürəndə aparılmış araşdırmalar zamanı 141 yeni əmək müqaviləsinin bağlanmasına nail olunub.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

# Cüdo üzrə beynəlxalq turnir keçirilib




*May ayının 21-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş cüdo üzrə beynəlxalq turnir keçirilib.*

Əvvəlcə qonaqlar ulu öndərimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Turnirin açılış mərasimində çıxış edən dünya və Avropa çempionatlarının mükafatçısı, İslam Oyunlarının qalibi Nicat Şıxəlizadə yarış iştirakçılarını və tamaşaçıları salamlayaraq qeyd edib ki, bu, cüdo üzrə yeniyetmələr arasında keçirilən ikinci beynəlxalq turnirdir. O vurğulayıb ki, bu gün ölkəmizdə dövlət başçısı tərəfindən idmana və idmançılara böyük diqqət və qayğı göstərilir.

Azərbaycan Respublikasının Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov yarış iştirakçılarını beynəlxalq turnirin açılışı münasibətilə təbrik edərək bildirib ki, ulu öndərimizin əsasını qoyduğu dövlət gənclər və idman siyasəti bu gün ölkə başçısı tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının Gənclər və İdman nazirinin müavini bu tədbirin yüksək səviyyədə təşkil olunmasına görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib. Vurğulayıb ki, Naxçıvan ölkəmizdə beynəlxalq səviyyəli tədbirlərin və yarışların keçirildiyi bir məkan kimi tanınıb. Naxçıvan idman məktəbinin yetirmələri bu gün ölkəmizi beynəlxalq səviyyəli yarışlarda layiqincə təmsil edir, yüksək nəticələr qazanırlar.




Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov çıxışında əlamətdar idman yarışı münasibətilə tədbir iştirakçılarını və bütün idmançıları təbrik edərək bildirib ki, bu gün Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş cüdo üzrə beynəlxalq turnirə start verilir. Ümummilli liderimiz Heydər Əliyev daim idmanın inkişafı qayğısına qalmış, Azərbaycanda idman hərəkatı geniş vüsət almış, gənclərin idmana cəlbi istiqamətində kompleks tədbirlər görülmüşdür. Bu gün ulu öndərin müəyyənləşdirdiyi idman siyasəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azər Zeynalov vurğulayıb ki, muxtar respublikada da gənclərin fiziki hazırlığı və asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun himayə və qayğısı ilə muxtar respublikada müasir idman infrastrukturu formalaşdırılmış, 2 Olimpiya İdman Kompleksi və yüzlərlə digər idman obyektləri istifadəyə verilmiş, idmanın müxtəlif növləri üzrə federasiyalar yaradılmışdır. İdmanın kütləviliyinin təmin edilməsi sahəsində aparılan işlər gənclərin idmana marağını artırmış, istedadlı idmançıların yetişməsinə səbəb olmuşdur. Nəticə isə göz



önündədir: İdmançılarımız beynəlxalq yarışlarda Naxçıvanı uğurla təmsil edirlər.

Federasiya sədri diqqətə çatdırıb ki, muxtar respublikada digər idman növləri ilə yanaşı, cüdo da inkişaf etdirilir, bu idman növü üzrə beynəlxalq turnirlər təşkil olunur. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş cüdo üzrə beynəlxalq turnirə də böyük maraq vardır. Turnirdə 4 ölkədən 100-ə yaxın idmançı mübarizə aparacaqdır.

Azər Zeynalov yarışların sağlam idman mübarizəsi şəraitində keçəcəyinə və yarış iştirakçılarına ölkələrini layiqincə təmsil edəcəyinə əminliyini bildirib, turniri açıq elan edib.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Cüdo üzrə beynəlxalq turnirin açılış mərasiminin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının ifaları alqışlarla qarşılanıb.

Daha sonra final görüşlərinə start verilib.

Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman nazirlikləri, Azərbaycan Respublikası Cüdo Federasiyası və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının təşkilatçılığı ilə keçirilən turnirdə 4 ölkənin – Azərbaycan, Rusiya, Türkiyə və Gürcüstanın 9 komandasının, ümumilikdə, 100-ə yaxın cüdoçusu tatami üzərinə çıxıb. 3-cü yerlər uğrunda görüşlərdə Gürcüstan komandası Bakı komandasına, Qəbələ komandası isə Rusiya komandasına qalib gələrək bürünc medal qazanıb.

Final görüşündə Naxçıvan komandası Sumqayıt komandasını məğlub edərək beynəlxalq turnirin qalibi olub.

Sonda qaliblərə diplom, medal və kubok təqdim olunub, xatirə şəkli çəkdirilib.

✍ **Ceyhun MƏMMƏDOV**

# Gənclər Azərbaycanın gələcəyidir

***İnsan ömrünü fəsillər kimi düşünə bilərik. Ömrün də baharı, yayı, payızı və qışı vardır. Gənclik ömrün baharıdır. Gənclik də bahar kimi qaynar, bahar kimi rəngarəng, bahar kimi zəngindir. Gələcək məhsulun təməli baharda qoyulduğu kimi, insanın gələcək mənalı ömrünün də əsası gənclikdə qazanılır.***

Xalqımızın mübarizələrlə dolu tarixi keçmişinə nəzər salanda bütün məqamlarda gənclərin fəal mövqeyinin, igidliyinin, qəhrəmanlığının, vətənpərvərliyinin şahidi oluruq. Bu gün də Azərbaycan gəncləri öz ulu keçmişinə sadiq olmalı, xalqımız üçün gərəkli gənclər kimi yaşamalı və mübarizə aparmalıdırlar.

Bu gün gənclərin qarşısında çox böyük və möhtəşəm vəzifələr durur. Öz müstəqilliyinin 28-ci ilində olan Azərbaycan Respublikası gənclərə arxalanır, çünki ümummilli liderimiz Heydər Əliyevin də söylədiyi kimi: ***"Gənclər Azərbaycanın gələcəyidir"***. Elə azadlıq və müstəqilliyimizin qazanılmasında da gənclərin mübariz xidmətləri olmuşdur.

Azərbaycanda gənclərin sayı çoxdur. Elə buna görə də respublikamız gənclər ölkəsi adlandırılır. Gənclər öz milli dəyərlərinə – dilinə, dininə, musiqisinə, incəsənətinə, folkloruna sahib çıxmalı, onlarla fəxr etməli və qürur duymalıdırlar. Ümummilli liderimiz Heydər Əliyev gənclərə tövsiyəsində deyirdi ki, öz doğma ana dilimizi sevin, bu dildə danışmaqla fəxr edin. Nə qədər çox dil bilirsinizsəbilin, amma öz dilimizi onlardan doğma və əziz bilin, onu qoruyub saxlayın. Biz gərək hansı ölkədə oluruqsa-olaq, danışmağımızla, etik normalara əməl etməyimizlə, düzgün nitqimizlə öz xalqımızı düzgün təmsil edək, digər xalqlarda təəssüratlar yaradaq.

Əsrimiz intellekt, təhsil əsridir. Bizim gənclərimiz yüksək təhsilli, geniş dünyagörüşlü, siyasi cəhətdən kamil gənclərdir.

Ümummilli liderimiz Heydər Əliyev gəncləri çox sevirdi və onların öz bilik və bacarıqları ilə dünyanın qabaqcıl gəncləri sırasında olmalarını arzu edirdi. Mən Azərbaycan gənclərini ulu öndər Heydər Əliyevin görmək istədiyi gənclər kimi görmək istəyirəm. Hər bir Azərbaycan vətəndaşı milli-mənəvi dəyərlərinə hörmət və ehtiramla yanaşmalıdır. Biz beynəlxalq idman yarışlarında, olimpiya oyunlarında, olimpiadalarda iştirak edərək öz bayrağımızı ləyaqətlə dalğalandırmalı, himnimizi səsləndirərək Vətənimizin adını yüksəklərə qaldırmalıyıq. O zaman biz ümummilli liderimizin görmək istədiyi kimi olmağı bacararıq.

Milli-mənəvi dəyərlər xalqın siması, kimliyidir. Bu dəyərlərimizi qorusaq, onlara sahib çıxsaq, mən inanıram ki, bu zaman dünyanın ən qabaqcıl xalqları arasında olaraq Vətənimiz Azərbaycanı layiqincə təmsil edərik.

Ana dilimiz də bizim üçün çox müqəddəs və əhəmiyyətlidir. Biz öz dilimizdən düzgün və yerli-yerində istifadə etsək, səlis və sərbəst bir nitqə sahib olarıq. Ata-babalarımızdan gənclərə miras qalmış böyük-kiçik yeri bilmək, yaşlılara, qadınlara hörmət etmək, uşaqlara qayğı ilə davranmaq gənclərin mənəvi borcudur.

Gənclərin qarşısında duran ən böyük vəzifələrdən biri də işğal olunmuş torpaqlarımızı azad və ərazi bütövlüyünü bərpa etməkdir.

Gözün aydın, Azərbaycan! Torpaqların azad edildi! Üçrəngli bayrağın Xankəndidə, Xocalıda, Şuşada, Laçında, Füzulidə, Qubadlıda, Ağdamda, Ağdərədə, Xocavənddə, Zəngilanda, Kərkidə dalğalanır. Bu xoş xəbəri, mən istərdim ki, Azərbaycan xalqına çatdıranlar içərisində gənclər birinci olsun.

Mən Azərbaycan gəncini öz mənəvi dəyərləri ilə tərbiyə edilmiş, soykökünə möhkəm bağlı olan, Vətənini, xalqını sevən bir şəxs kimi görmək istəyirəm. Vətəni sevmək azdır. Gərək Vətən yolunda hər cür çətinliyə, sınaqlara hazır olasan. Mən Azərbaycan gənclərini öz həmvətənimiz, Milli Qəhrəman Mübariz İbrahimov kimi Vətəni uğrunda canından belə, keçməyə hazır olan gənclər kimi görmək istəyirəm.

***Şəbnəm İMANOVA***
***Culfa rayon Saltaq kənd tam orta məktəbinin XI sinif şagirdi***

*Muxtar respublikaya idxal edilən uşaq qidalarının 7 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. Yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 76 qida istehsalı müəssisəsinə, 107 ictimai iaşə və xidmət sahəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür. Məhsulların sertifikatlaşdırılmasına dair elektron xidmət vasitəsilə daxil olmuş 25 müraciət operativ icra edilmişdir.*

# İstehlak bazarına nəzarət edilir



Meyvə-tərəvəz və onlardan hazırlanmış məhsulların keyfiyyətinin nəzarətdə saxlanılması işi çərçivəsində məhsulların 13 halda keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra sertifikatlaşdırılmış, 2 anbardan, 2 istixanadan və 3 satış obyektindən götürülmüş məhsulların 9 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. Kənd təsərrüfatı məhsullarının istehsalında istifadəsinə icazə verilən təbii və qeyri-təbii vasitələrin tətbiqinə, xaricdən idxal edilən üzvi və qeyri-üzvi gübrələrin keyfiyyət göstəricilərinə, toxumların və tingçilik məhsullarının müəyyən olunmuş tələblərə cavab verməsinə nəzarətin gücləndirilməsi tədbirinin icrası istiqamətində qarpız, qovun, xiyar, pomidor toxumlarından nümunələr seçilərək analizləri aparılmışdır.

Uşaq bağçalarının, məktəblərin, xəstəxanaların və digər təhsil və səhiyyə müəssisələrinin yerli məhsullarla təmin edilməsi və alınan qida məhsullarının keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması istiqamətində 34 təhsil, 13 məktəbəqədər tərbiyə, 10 səhiyyə müəssisəsinin bufet və yeməkxanasında monitorinqlər, həmçinin yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici söhbətlər aparılmış və aşkar olunmuş nöqsanlar aradan qaldırılmışdır.

"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" üzrə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsi kənd təsərrüfatı bitkilərinin toxumları ilə bağlı 13 adda AZS dövlət standartı ilə təmin edilmişdir. "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın icrası çərçivəsində İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birlikdə Şərur rayonunda fəaliyyət göstərən "Şərur-3" Məhdud Məsuliyyətli Cəmiyyətində alkoqollu içkilər istehsal edən ailə təsərrüfatları üçün maarifləndirici tədbir keçirilmiş, aktiv kömür və kvars qumu filtri qurğusu nümayiş etdirilmiş və ailə təsərrüfatlarına istifadəsi tövsiyə olunmuşdur. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarət edilməsi üçün məhsullardan 52 halda nümunə götürülərək laboratoriyaya təqdim olunmuş, sınaq nəticələrinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində aidiyyəti təşkilatların nümayəndələri ilə birlikdə Şərur rayonunun Dizə, Şahbuz rayonunun Kolanı və Kəngərli rayonunun Çalxanqala kəndlərində arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüşlər keçirilmiş, bal məhsullarının 2 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. Ərzaq məhsullarının keyfiyyətinə nəzarətin gücləndirilməsi prosesi çərçivəsində məhsul nümunələrinin 7 halda laboratoriya analizləri aparılmış və standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. Həmçinin alkoqollu içkilər istehsal edən 3 müəssisədə istehsal olunan məhsulların laboratoriya analizi aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. 128 bərbərxana və 51 gözəllik salonunda maarifləndirmə xarakterli monitorinqlər aparılmış, xidmət mərkəzlərinə 37 halda baxış keçirilmiş və qanunvericiliyə uyğun olmadığından 10 informasiya xarakterli lövhənin istifadəsi qadağan edilmişdir. Metroloji norma və qaydalara uyğun olaraq 1974 sayğac yoxlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsinin nümayəndələri ilə birgə elektrik və qaz cihazlarının satışını həyata keçirən 18 təsərrüfat subyektində müşahidə xarakterli təkrar monitorinqlər aparılmış, idxal olunan 316 məişət qaz cihazına baxış keçirilmiş, təhlükəsizliyi təmin olunmayan 13 məişət qaz cihazının idxalına və satışına icazə verilməmişdir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi***

## Qədim və bənzərsiz sənət növü

***Keçmişdən günümüzə qədər, demək olar ki, bütün mədəniyyətlərdə, Səlcuqlu və Osmanlı dövrlərində Anadoluda uğurla istifadə edilən minakarlıq Sasanilər zamanında (224-651) sənətkarlar tərəfindən yaradılıb. Bu sənəti monqollar Hindistan və digər ölkələrə yayıblar. Bəzi tarixi mənbələr göstərir ki, Səlcuqlu, Səfəvilər və Zənd sülalələrinin yaşayış məskənlərindən minakarlıq üslubunda emal edilmiş yemək qabları və materiallar aşkar olunub. Belə yemək qablarının əksəriyyəti Qacar sülaləsinə aiddir. Səfəvilər dövründə buraya səfər edən fransız səyyahı qeydlərində yazırdı: “Bu əşyalar parlaq rəngli quşlar, heyvanlar, çiçək naxışları və ornamentlərlə bəzədilmişdir”.***



Bu gün həmin sənət növü ilə məşğul olanlar dünyada barmaqla sayılacaq qədərdir. Dünyanın yaradılış yeri olan qədim yurdumuzda minakarlıq ilə illərdir, məşğul olan Əlhüseyn Qəribzadə bu sənətə marağın onda 10 yaşından yarandığını deyir. Bildirir ki, minakarlıq sənəti haqqında bir çox məlumatları aldıqdan, onun sirlərinə bələdçilik etdikdən sonra bu işlə məşğul olmağa başlayıb. “Prosesdə bir neçə usta iştirak etməli olduğu halda, mən bu işi təkbaşına görürəm”, – deyən usta onu da bildirir ki, metal formaları yaratma, maye ilə boyama və örtmə prosesi olduqca mürəkkəbdir. Bu sənət əzmkarlıq tələb edir. İşin gözəlliyi sənətkarın zövqünün incəliyinə, bacarığına bağlıdır. Mina üçün, əsasən, qızıldan istifadə edilir, çünki qızıl minanı daha yaxşı saxlayır. Gümüşdən qutuların, kasaların, qaşıqların, misdən isə digər sənət nümunələrinin hazırlanmasında istifadə edilir. Minakarlığın nümunələri çox müxtəlifdir, eyni naxışlarla işlənmiş ikinci əl işini tapmaq çətindir.

Minakarlıqda istehsal prosesi çox çətin olduğu üçün bu iş, ilk növbədə, diqqət və səbir tələb edir. İlk olaraq mis, gümüş, qızıl kimi metallardan seçilib müxtəlif əl işləri hazırlanır. Bu boyunbağı, cib saatı, rəsm və sair ola bilər. Sonra bu formanın minalanacaq tərəfi 1, 2, 3 millimetr ölçüdəki polad əl qələmi ilə oyularaq naxışlanır. Naxışlandıqdan sonra oyulmuş yerlərə mina toz olaraq tətbiq edilir və uyğun istilikdə əriyənə qədər ocaqda saxlanılır. Minanın ərimə dərəcəsini usta təyin edir. Bu istilik 750 dərəcə ilə 1000 dərəcə arası olur. Proses 3 dəfə təkrarlanır, – deyən müsahibim onu da qeyd edir ki, minanın ən dəyərlisi fırça ilə rəsm ediləndir. Bu fırçalar, adətən, pişik tükündən hazırlanır. Rəsm edilmiş minanın ən dəyərlisi isə 1,5-2 santimetr ölçüdə olan insan portretləridir. Rəsmli minakarlıq növü rəssamlıq, zərgərlik, kimyagərlik tələb edən bir qarışıq laboratoriya sənətidir.

Hər rəngin ərimə dərəcəsi fərqli olduğundan rəsmli minada rəngləri bir-birinə qarışdırmaq olmaz. Məsələn, işə ən yüksək dərəcədə əriyən sarı rəngdən başlamaq lazımdır. Bundan sonra əsərimiz 900 dərəcə istilikdə 5 dəqiqə bişirilir. Sonra mavi rəng vurulur, 850 dərəcədə bişirilir. Beləliklə, mərhələ-mərhələ digər rənglər əlavə edilir və hər rəng sonrası istilik müəyyən qədər aşağı düşürülür. Bir portret, təxminən, 10-18 dəfə ocaqda bişirilib soyudularaq işlənilir. Bişmiş məhsuldakı qüsurları aşkarlamaq üçün o, diqqətlə gözdən keçirilir. Yalnız mükəmməl örtüyə malik məhsullar satışa çıxarılır və ya nümayiş etdirilir. Müsahibim deyir ki, mexaniki təsirlər, kürədə tələb edilən istiliyin və ya müxtəlif təbəqələr arasında güclü qovşağın olmaması, metaldakı çatışmazlıqlar səthin kənarına zərər vurur. Mina üçün ən böyük risk mexaniki təsir nəticəsində bəzədilmiş səthin ayrılmasıdır. Ona görə də əl işlərini daşıyanda diqqət göstərilməlidir. Ayrılmış hissəyə rast gəlindikdə dərhal təmir olunmalıdır, əks halda digər hissələrin ayrılması baş verə bilər.

Müsahibim onu da bildirir ki, bu sənətdə “islimi” üslubunda müxtəlif naxışlardan istifadə üstünlük təşkil edir. Minakarlığın fərqləndirici xüsusiyyətlərindən biri olan bu üslubdan min ildən artıqdır ki, istifadə edilir.

Əlhüseyn onu da diqqətimizə çatdırır ki, keçmişdə bu sənətdə qeyri-üzvi boyalardan, hazırda isə kimyəvi rənglərdən istifadə olunur.

Bu işin sirlərindən söhbət açan usta deyir ki, hər mina ustasının müraciət etdiyi fərqli üsullar mövcuddur. Bu üsulların hər biri uzun illər aparılan yüzlərcə sınaqdan sonra yaradılıb. Buna görə də ustalar öz üsullarını heç kimlə bölüşmürlər. Bu özünəməxsusluğuna görə minakarlıq sənəti günümüzdə nadir sənət növləri arasındadır. Günümüzdə metal üzərini hazır satın alınma rəngli şüşə tozları ilə bəzəyib mina kimi təqdim etsələr də, mina başqa, şüşə isə tamamilə başqadır. Minakarlıq sənəti ilə işlənmiş dizaynda bəzədilmiş parlaq rənglər müəyyən istilikdə metala sabitlənmiş olur. Ümumiyyətlə, mina maqnezium, kalium, qurğuşun, qiymətli daşlar, feldispat, kaolin, zirkonyum, borik turşusu və qalaydan hazırlanır.

Əlhüseyn onu da bildirir ki, hazırda “Novruz yumurtaları” adlı kompozisiya üzərində işləyir. Bu kompozisiyada yumurtalar hazırlamaq və onların içərisinə milli bayramımız olan Novruzun simvollarını yerləşdirməklə məşğuldur.

Onu da qeyd edim ki, Əlhüseyn Qəribzadənin işi təkcə minakarlıqla bitmir, o, yağlı boya ilə əsərlər çəkir. Onun əsərləri Birləşmiş Ərəb Əmirliklərindəki şəxsi kolleksiyalarda da var.

Müsahibim indiyə kimi onlarla bənzərsiz minakarlıq işləri görüb və əsərlərində qədim diyarımızın tarixini, mədəniyyətini özündə əks etdirən nümunələr yaradıb.

Bütün bunlar onun istedadının təcəssümü, bu insana bəxş edilən yaradıcılıq bacarığının məhsuludur. Onun əl işlərinə baxanda belə bənzərsiz incəsənət nümunələri yaradan insanın yaradıcılığına valeh olmamaq mümkün deyil.

**Ramiyyə ƏKBƏROVA**

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən aprel ayında gənclərin asudə vaxtlarının səmərəli təşkili, idmanın kütləviliyinə nail olunması, idman federasiyalarının işinin düzgün qurulması istiqamətində ardıcıl tədbirlər görülmüşdür.***

## Gənclər və idman tədbirləri davam etdirilir




“Xəmsə” milli intellektual oyunu üzrə XI Azərbaycan çempionatının Naxçıvan Muxtar Respublika birinciliyi keçirilmiş, çempionatda iştirak edəcək komandalar müəyyənləşdirilmişdir. Həmçinin Naxçıvan şəhərindəki uşaq bağçalarında “Ağıllı uşaq” əyləncəli intellektual oyunu davam etdirilmiş, Naxçıvan Tibb Kollecində “Mən də proqramçı olmaq istəyirəm” adlı proqramlaşdırma təlimi, Rəssamlar Parkında “İncəsənət döyüşü” adı altında rəsm müsabiqəsi, “Şahin” hərbi-idman oyununun Naxçıvan Muxtar Respublika zona birinciliyi, “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü üzrə Naxçıvan Muxtar Respublika çempionatı keçirilmişdir. Göygöl rayonunda “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü üzrə ölkə çempionatında Naxçıvan komandası birinci yerə layiq görülmüşdür.

“Naxçıvanı tanıyaq” devizi altında tədbirlər davam etdirilmiş, gənclərin tarixi abidə və muzeylərə ekskursiyaları təşkil olunmuşdur. Həmçinin “Dostluq həftəsi” adı altında İran İslam Respublikasının gənclərdən ibarət nümayəndə heyətinin Azərbaycan Respublikasına səfəri çərçivəsində gənclərin Naxçıvan şəhərinin gəzməli-görməli yerləri, tarixi-mədəniyyət nümunələri ilə tanışlığı təmin edilmişdir. Muxtar respublikada yaradıcı gənclərin aşkar olunması, onların qabiliyyətlərinin inkişaf etdirilməsi üçün əlverişli mühitin formalaşdırılması, muxtar respublikanın tarixinin və turizm potensialının təbliği məqsədilə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Yaradıcı gənclər” festivalı təşkil olunmuşdur. Beynəlxalq Yer Kürəsi Günü ilə əlaqədar Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında təmizlik aksiyası keçirilmiş, gənclər ətraf mühitin qorunmasında fəallıq göstərmişlər. “Gənclik” Mərkəzində Naxçıvan şəhərində fəaliyyət göstərən tam orta məktəblərin IX-XI sinif şagirdlərinə “Biz ali məktəbə hazırlaşırıq” devizi altında “Şagirdlərin ali məktəblərə hazırlanmasına psixoloji dəstək” təlimi keçirilmişdir.

“Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə” keçirilən müşavirədə verilən tapşırıqların icrası ilə bağlı işlər davam etdirilmişdir. Gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması, onların döyüş qabiliyyətlərinin formalaşdırılması, silahlar haqqında bilik və bacarıqlarının artırılması məqsədilə atış təlimi keçirilmişdir.

Ötən ay idman sahəsində kütləviliyin təmin olunması üçün “Naxçıvan Muxtar Respublikası – 95” və “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizləri altında müxtəlif idman növləri üzrə muxtar respublika açıq birincilikləri keçirilmişdir. Həmçinin “Naxçıvan” Universitetinə 1 dəst tatami döşəyi verilmişdir. Muxtar respublika idmançılarının müxtəlif idman növləri üzrə keçirilən Azərbaycan çempionatlarında və “Böyük İpək Yolu” X beynəlxalq boks turnirində iştirakı təmin edilmiş və uğurlu nəticələr əldə olunmuşdur. Ölkə çempionatlarında və beynəlxalq turnirlərdə uğurla çıxış edən idmançılarımız Azərbaycan birinciliyində 14, beynəlxalq turnirdə 1 olmaqla, ümumilikdə, 15 medal qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Tələbələr Qars Qafqaz Universitetində təcrübə keçiblər



***Naxçıvan Dövlət Universiteti Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələri Türkiyənin Qars Qafqaz Universitetində birhəftəlik təcrübə keçiblər.***

Türkiyənin Qars Qafqaz Universitetinin rektoru, professor Hüsnü Kapu, Baytarlıq təbabəti fakültəsinin dekanı, professor Mete Cihan 3 müəllim və 11 tələbədən ibarət 14 nəfərlik heyəti qəbul ediblər. Təcrübəçi tələbələr klinik təcrübənin keçirilmə planına uyğun olaraq qaramal və qoyun saxlanılan binalar, sağım sexi, yem tədarükü məntəqəsi, laboratoriya heyvanları şöbəsi ilə tanış olublar.

Əvvəlcə klinik müayinə və laboratoriya dərslərində iştirak edən tələbələrə Cərrahiyyə kafedrasının professoru İsa Özaydın xəstə heyvanların qəbulu, qeydiyyatı, onların müayinə üsulları, qan və digər analizlərin götürülməsi qaydaları haqqında məlumat verdikdən sonra cərrahiyyə praktikasında istifadə olunan müxtəlif növ tikiş üsulları haqqında danışıb. Tələbələr cərrahlarla birgə müxtəlif mürəkkəb əməliyyatlarda iştirak ediblər.

Yoluxmayan daxili xəstəliklər kafedrasında tələbələrə laboratoriya avadanlıqları və heyvanlarla tanışlıq, vakuum şprislər vasitəsilə heyvanlardan qan alınması və sonradan onun sentrifuqada fırladılaraq fraksiyalara bölünməsi, heyvanlara müxtəlif üsullarla dərman maddələrinin yeridilməsi texnikası öyrədilib.

Parazitologiya fənninə dair yaxmalar, anatomiyaya dair kitablar, tədris vəsaiti, elektron kitabların bir qismi təcrübi proseslərdə yaxından iştirak edən tələbələrə verilib.

Səfər çərçivəsində Qars şəhərinin tarixi-mədəni yerlərinə ekskursiyalar da təşkil olunub.

**Səadət ƏLİYEVA**

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi *yaz-yay mövsümü üçün müxtəlif növ əşya əmlaklarının satın alınması üçün açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, bina 41 ünvanında yerləşən Fövqəladə Hallar Nazirliyinin Maliyyə-təsərrüfat şöbəsindən (əlaqələndirici şəxs: Cabbarov Murad Rasim oğlu, tel: 544-48-34) ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət*

*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır)*

*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır)*

*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış*

*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti*

*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı*

*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri*

*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları*

*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanunauyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 12 iyun 2019-cu il saat $17^{00}$-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 13 iyun 2019-cu il saat $17^{00}$-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, bina 41-də yerləşən Fövqəladə Hallar Nazirliyinin Maliyyə-təsərrüfat şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 14 iyun 2019-cu il tarixdə saat $11^{00}$-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender komissiyası**

### *İtmişdir*

Quliyev Vaqif Teyyub oğlunun adına olan 018428 nömrəli müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 350